# Universitetin ən qocaman fakültələri

Zəngin təhsil ənənələri olan, dövlətin təhsil siyasətinin uğurla icra olunmasını və ölkənin müasir tələblərə cavab verən mütəxəssislərlə təmin edilməsini özünün strateji hədəfi kimi müəyyənləşdirən Azərbaycan Memarlıq və İnşaat Universiteti 40 yaşını qeyd etməyə hazırlaşır. 95 illik tarixi olan memarlıq və inşaat təhsilinin davamçısı olan universitet böyük bir təkamül yolu keçərək bu gün ölkəmizin aparıcı, qabaqcıl təhsil müəssisələrindən birinə çevrilib.

1920-ci ildə xalqımızın dəyərli ziyalısı Nəriman Nərimanovun imzaladığı dekretə əsasən yaradılmış Bakı Politexnik İnstitutunun nəzdində mühəndis - tikinti fakültəsiylə yola çıxan memarlıq və inşaat təhsili bu günlərə gəlib çatana qədər uzun bir yol qət edib. Azərbaycanda memarlıq və inşaat təhsilinin ilk cığıraçanı sayılan Bakı Politexnik İnstitutu sonrakı illərdə müxtəlif adlarla -Azərbaycan Politexnik İnstitutu, Neft İnstitutu, Sənaye (İndustrial) İnstitutu adlandırılsa da, memarlıq və inşaat fakültələri bu təhsil ocaqlarında həmişə fəaliyyət göstərib. 95 yaşlı memarlıq və inşaat fakültələri bu gün də AzMİU-nun ən aparıcı, vacib, həmişə tələb olunan fakültələrindəndir. Təbii ki, 95 ildə hər iki fakültə daha da böyüyüb, inkişaf edib, uğurlar qazanıb.

## Ən qocaman fakültə

Memarlıq fakültəsinin dekanı, əməkdar memar *Zahidə Məmmədova* rəhbərlik etdiyi fakültənin bu günü, fəaliyyəti, uğurları barədə fikirlərini bizlərlə paylaşır:

- Azərbaycan Memarlıq və İnşaat Universitetinin 95 il tarixi olan memarlıq fakültəsi öz köklü ənənələri ilə nəinki bu elm-təhsil ocağında, habelə memarlıq ixtisaslarını tədris edən digər ali məktəblər arasında da həmişə seçilib.

Hazırda fakültədə 700-dən çox tələbə təhsil alır, tədris Azərbaycan, rus və ingilis dillərində aparılır, tələbələrimiz arasında xarici ölkələrdən gəlmiş gənclər də var. Avropa Memarlıq Məktəbləri Birliyinə üzv olan universitetimizin memarlıq fakültəsi Azərbaycanda yeganə təhsil ocağıdır ki, nəinki respublikamızda keçirilən bir sıra mötəbər tədbirlərə, o cümlədən beynəlxalq səviyyəli konfrans və simpoziumlara da ev sahibliyi edir. Tələbə memarlarımızın layihələri beynəlxalq sərgilərdə yüksək diplomlara layiq görülür, məzunlarımızın buraxılış işləri və dissertasiyaları MDB ölkələri memarlıq universitetləri (MOOCAO), İtaliyada keçirilən beynəlxalq konfranslar və müsabiqələrdə, Fransa memarlıq məktəblərinin Beynəlxalq REA Birliyində layiqli şəkildə təmsil olunur. 2009 və 2012-ci illərdə İtaliyanın Del Bianko Fondunun Bakıda keçirilən regional festivallarında tələbələrimizin buraxılış işləri fəxri yerlərə layiq görülüb. 2014-cü ilin oktyabrında AzMİU və Azərbaycan Memarlar İttifaqının təşəbbüsü ilə buraxılış işlərinin XXIII beynəlxalq baxış-müsabiqəsi keçirilib, müsabiqədə 57 ali memarlıq məktəbi, eyni zamanda memarlıq və dizayn üzrə mütəxəssislər hazırlayan respublika universitetləri də iştirak edib.

Fakültənin beynəlxalq təhsil əlaqələri də genişdir, beynəlxalq mübadilə proqramları olan Avropa Birliyinin Erasmus+ və Türkiyənin "Mövlanə" Mübadilə Proqramına qoşulmuşuq. Memarlıq təhsilinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədiylə xarici memarlıq məktəbləriylə professional əlaqələri genişləndiririk. 2006-cı ildə UNESCO-nun xətti ilə ABŞ-ın Minnesota Universiteti ilə birlikdə İçərişəhər abidələrinin inventarlaşdırılması aparılıb. İtaliyanın Romualdo Del Bianko Fondu, Florensiya Universiteti və Avstriyanın Vyana Universitetinin memarlıq fakültəsi ilə birgə layihələr gerçəkləşdirmişik.

Bu gün memarlıq fakültəsində memarlıq və dizayn ixtisasları üzrə kadr hazırlanır. Gənc memarların hazırlanması ilə onlarca yüksək ixtisaslı mütəxəssis, o cümlədən, istedadlı memar, rəssam və heykəltəraşlar, rəngkar və sənətşünaslar da məşğul olurlar. Pedaqoqlarımızdan 3-ü "Şöhrət" ordeni ilə təltif olunub, 12-si əməkdar memar fəxri adlarına layiq görülüb, 2 nəfər isə Respublika Dövlət mükafatı laureatıdır. Memarlığın nəzəri və təcrübi meyarlarının tələbələrə aşılanması üçün istehsalatdan təcrübəli mütəxəssislər, böyük təcrübəyə malik memarlar da tədrisə cəlb olunur. Tanınmış mütəxəssislərin ustad dərslərinin təşkili fakültədə ənənə halını alıb. Tələbələrimiz əməkdar memar Nəriman İmaməliyevin, professor Fəqan Əliyevin, italiyalı memar Laura Perettinin, ABŞ-ın Kolumbiya Universitetinin professoru Mark Xidekelin mühazirələrini böyük maraqla dinləyirlər.

Fakültənin məzunları arasında həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda tanınan alim və mütəxəssislər çoxdur. İlk məzunlarımızdan M.Useynov, S.Dadaşov, B.Revazov, Ə.Qasımzadə, Ə.Salamzadə, L.Bretanitski, K.Məmmədbəyov, K.Məmmədzadə, Q.Əlizadə, D.Axundov, Ş.Fətullayev, H.Məcidov, R.Əliyev, E.Kanukov və başqaları Azərbaycanda tanınmış memarlar və memarlıq elmi sahəsində böyük nailiyyətlər qazanmış mütəxəssislər olublar. Bu gün də məzunlarımız dövlət ali icraedici orqanlarda, elmi-tədqiqat institutlarında, eləcə də müxtəlif şirkətlərdə uğurla çalışırlar.

Fakültənin alimləri G.Məmmədova, F.Hüseynov, R.Əbdülrəhimov, N.Nağıyev, N.Abdullayeva, R.Əmənzadə, S.Hacıyeva, Z.Məmmədova tərəfindən 2013-cü ildə nəşr edilmiş "Azərbaycan memarlıq tarixi" adlı beşcildlik kitab memarlıq elminə böyük töhfədir. Bu gün biz müstəqil ölkəmizin sürətlə inkişaf edən iqtisadiyyatını yüksək ixtisaslı memar kadrlarla təmin etmək məqsədiylə öz fəaliyyətimizi təkmilləşdirir, yeniləşdirir, Avropa təhsil sisteminə inteqrasiya yolu ilə gedirik.

## 95 ildə keçilən yol

İnşaat fakültəsinin dekanı, texnika elmləri namizədi *Hikmət Məmmədovun* AzMİU-nun 95 yaşlı fakültəsiylə bağlı söylədikləri şübhəsiz ki, oxucular üçün maraqlı olar:

- İnşaat fakültəsi Azərbaycan Memarlıq və İnşaat Universitetinin ilk fakültələrindəndir. 1920-ci ildə Bakı Politexnik İnstitutu yaradılanda onun nəzdində mühəndis-tikinti fakültəsi kimi fəaliyyətə başlayıb.

Bu gün fakültədə təhsil Azərbaycan, rus və ingilis dillərində aparılır, bakalavr pilləsində 1025 tələbə təhsil alır, "İnşaat mühəndisliyi" ixtisası üzrə mütəxəssislər hazırlanır. Bu gün İnşaat fakültəsi respublikanın ali məktəbləri arasında yeganə fakültədir ki, beynəlxalq təhsil sisteminə inteqrasiya olunur. Türkiyənin İstanbul Texniki Universiteti ilə AzMİU arasında bağlanmış müqaviləyə əsasən, 2013-2014-cü tədris ilindən hər iki universitetin İnşaat fakültəsi "ikili diplom" proqramı üzrə birgə kadr hazırlığını ingilis dilində ortaq proqram əsasında aparır. Moskva Dövlət Universiteti tərəfindən Beynəlxalq İnşaat Universitetləri Assosiasiyasının iclaslarında mütəmadi iştrak edirik və tələbələrimiz həmin assosiasiya çərçivəsində təşkil olunmuş distant təhsil proqramı əsasında müəyyən fənlər üzrə mühazirələr dinləmək imkanı da qazanıb.

Tədrisin keyfiyyətini artırmaq üçün fakültədə ixtisaslaşdırılmış auditoriyalar və laboratoriya otaqları yaradılıb, 2015-2016-cı tədris ilindən müasir tələblərə cavab verən inşaat konstruksiyalarının sınağı və tədqiqi laboratoriyası istifadəyə verilib, inşaat konstruksiyalarının kompüter layihələndirilməsi laboratoriyası fəaliyyət göstərir. Tədrisin nəzəri əsaslarının təcrübədə tətbiqi işinin səmərəliliyini yüksəltmək üçün fakültənin istehsalatla əlaqələrinin genişləndirilməsinə xüsusi diqqət yetirilir. Bağlanmış müqavilələr əsasında tələbələrimiz tədris-istehsalat və tədris-texnoloji təcrübələrini Bakının tanınmış sənaye müəssisələrində və inşaat şirkətlərində (Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu, Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu, ARDNŞ, Akkord, FHN, Paşa-İnşaat, BP, İCOM və s.) keçirlər.

Fakültənin məzunları arasında respublikanın ictimai-siyasi həyatında və istehsalat sahəsində tanınmış kadrlar çoxdur, onlardan Baş nazirin müavinləri Yaqub Eyyubov və Abid Şərifovu, Milli Məclisin deputatı Aydın Mirzəzadəni və başqalarını misal göstərmək olar.

Bir əsrə yaxın tarixi olan inşaat fakültəsinin bir çox müəllim və professorları bu gün həyatda yoxdur, onların xatirəsi həmişə ehtiramla yad edilir. Belə müəllimlərdən Abuzər Əliyevi, Hüseynağa Muradxanovu, Arif Səmədovu, Andrey Qolubitskini, Tofiq Sadıqovu, Qəni Məmmədovu, Kazım Quliyevi, Aleksandr Qolşteyni, Ağahüseyn Bədəlovu, Hüseyn Cəfərovu, Nuhəli Ağayevi və b. göstərmək olar. Bu gün fakültədə gənc müəllimlərlə yanaşı, qocaman müəllimlərimiz də çalışırlar, Knyaz Əliyev, Əsgər İsayev, Sabir Quliyev, Telman Əliyev, Rasim Bayramov, Musa Kələntərov, Bəhram Avılov və başqalarının mühazirələri tələbələr üçün həmişə maraqlıdır.

**Mətbuat xidməti**